QANUN № 01 (351), 2024, s. 107-111

**Müslümov Bəhruz Firizman oğlu,**
Bakı Dövlət Universitetinin Cinayət hüququ kafedrasının doktorantı
E-mail: bahruzmuslumov@gmail.com

**UOT 343.22; 343.97**
**DOI 10.30546/2218-9130. 01.351.2024.107**

# KORRUPSİYA CİNAYƏTLƏRİNİN SUBYEKTLƏRİNİN KRİMİNOLOJİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər:*** *subyekt, korrupsiya, cinayətkarın portreti, tip, şəxsiyyət.*

***Ключевые слова:*** *предмет, коррупция, портрет преступника, тип, личность.*

***Keywords:*** *subject, corruption, portrait of the criminal, type, personality.*

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 19-cu maddəsinə görə, cinayətin subyekti qanunvericiliklə müəyyən olunmuş yaş həddinə çatmış anlaqlı fiziki şəxsdir [1]. Yəni şəxsin cinayət məsuliyyətinə cəlb edilməsinin mümkünlüyü üçün iki mühüm şərt vardır: bunlardan biri cinayət törətmiş şəxsin qanunvericilikdə müəyyən olunmuş yaş həddinə çatması, digəri isə onun anlaqlı fiziki şəxs olmasıdır. Cinayət Məcəlləsinin 20-ci maddəsində cinayət məsuliyyətinə şəxsin cəlb oluna bilməsinin mümkünlüyü üçün qanunvericilik ümumilikdə 16 yaşı nəzərdə tutur, həmin maddənin 2-ci bəndində isə müəyyən qisim cinayətlərə görə bu məsuliyyətin 14 yaşında başlanması qeydi vardır. Bu kateqoriyadan olan cinayətlər xüsusilə cəmiyyətdə tez-tez rastlaşdığımız və yüksək ictimai təhlükəliliyi olan cinayətlər hesab olunur ki, bu sıraya qəsdən adam öldürmə, qəsdən sağlamlığa ağır zərər vurma, oğurluq, soyğunçuluq, quldurluq və s. kimi cinayətlər daxildir.

Biz vəzifəli şəxslərin cinayət məsuliyyəti barədə danışdıqda mütləq nəzərə almalı olduğumuz bir neçə mühüm məqam var. Yəni subyektin cinayət məsuliyyəti barədə danışdıqda bizim üçün mühüm əlamətlərdən biri subyektin vəzifəli şəxs olmasıdır. Belə ki, sözügedən halla əlaqədar olaraq Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi vəzifəli şəxsin anlayışını verir, kimlərin vəzifəli şəxs olduğuna aydınlıq gətirir [3].

Vəzifəli şəxs üçün tələb olunan əsas əlamətlərdən biri vəzifəli şəxsin vəzifə tutması və təşkilati-sərəncamverici funksiyası daşıması hesab olunur. Belə bir məqamda biz başa düşə bilirik ki, vəzifəli şəxs ən azı 18 yaşına çatmış şəxsdir.

Korrupsiya cinayətinin subyekt dairəsinin müəyyən edilməsi özlüyündə çətinlik yaradır və bu sahədəki mübarizəni sistemləşdirməyə imkan vermir. Korrupsiya cinayətlərinin subyektinin kriminoloji təhlili zamanı cinayətkara məxsus olan ümumi cizgiləri müəyyən etmək olur [9].

Erik Eriksona görə, fərd həyatı boyu bir psixososial krizislərdən keçir və onun şəxsiyyəti krizislərin nəticələrinin funksiyası kimi formalaşır. Corc Kelli isə şəxsiyyəti hər bir insana mənsub olan və həyat təcrübəsini dərk etmə bacarığı kimi təsvir edirdi. Albert Bandura şəxsiyyəti fərd, davranış və mühitin qarşılıqlı əlaqəsi kimi tədqiq edirdi [4].

Cinayətkarın şəxsiyyətinin tədqiqində bir sıra mühüm komponentlər öz əksini tapır. Bir qayda olaraq yanaşmaya əsasən şəxsiyyət – onu təşkil edən biogenetik imkan), sosial amillərin təsiri (mühit, şərait, normalar, tənzimedicilər) və onun psixo-sosial nüvəsi – "məni" hesab olunur. Korrupsiya cinayətlərindəki şəxsiyyəti analizi etdikdə bizə məlum olur ki, burada şəxsiyyəti səciyyələndirən komponentlərin içərisində sosial amillərin təsiri özünü daha çox büruzə verir. Belə ki, şəxsiyyətin korrupsiya cinayətinin subyekti kimi bu cinayəti törətməsində xüsusilə mühit və şərait kimi amillər spesifiklik təşkil edir. Şəxsiyyətin düşdüyü mühitdə bir qayda olaraq cinayəti törətmək və bu cinayətdən varlanmaq kimi mühüm komponent öz əksini tapır. Cəzasızlıq mühiti, cinayətkarların sayının çoxluğu və şəxsiyyətin hərisliyi nəticədə bu cinayətin törədilməsini təşkil edir. Şəraitə gəldikdə subyekt cinayətin həyata keçirilməsi üçün özündə əvvəlcədən müəyyən imkanları başa düşür və dərk edir. Zərərçəkmişi bu şəraitə cəlb etməklə onu cinayətin törədilməsinə və bilavasitə desək, pulun və ya hər hansı qiymətli hədiyyənin verilməsinə təşviq edir.

Korrupsiya cinayətlərinin subyektində mühit və şərait imkanlarının cinayətkar tərəfindən nəzərdən keçirilməsi, nəticə etibarilə cinayətin törədilməsində mühüm əhəmiyyət kəsb edən faktordur [9].

Cinayətin subyektinin birbaşa və dolayı yolla tərəflə əlaqəyə girməsi və tərəfin ona müəyyən imkanları təklif etməsi ilə mühüm rol oynayır. Belə ki, korrupsiya cinayətlərinin subyektini vəzifəli şəxs hesab edirik və vəzifəli şəxslərin cinayət məsuliyyətinə cəlb olunması olduqca çətin bir prosesdir. Onlar bu fəaliyyətlə mütəmadi olaraq məşğul olduqları üçün cinayət məsuliyyətindən kənarda qalmağın yolunu dərk edirlər və buna uyğun olaraq addımlar atırlar. Biz vəzifəli şəxslərin bu cinayətləri törədən zaman bir çox hallarda onların ali təhsilli olmasının və uzun müddət iş təcrübəsinə malik olmasının şahidi oluruq.

Belə olduqda onlar prosesi qabaqcadan doğru qiymətləndirir və yarana biləcək təhlükəni sezmək iqtidarında olurlar. Cinayətkarın şəxsiyyəti özündə mühüm əlamətləri əks etdirir. Belə ki, ilk olaraq onun sosial-demoqrafik əlamətlərini (cinsi, yaşı, ailə vəziyyəti, təhsili, maddi təminatı) kimi faktorları nəzərə almalıyıq. Belə olan halda, qeyd etdiyimiz kimi, bir qayda olaraq, bu şəxs 18 yaşından yuxarıdır [4].

Təcrübədə çox az sayda 18-22 yaş arasında şəxslər bu cinayətlərin subyekti olurlar, cinayət törətmiş şəxslər, bir qayda olaraq, ali və orta-ixtisas təhsilli olurlar. Bu isə o deməkdir ki, korrupsiya cinayətinin subyektini müəyyən edərkən şəxsin ali və orta ixtisas təhsili alması, daha sonra kişi cinsli şəxslərin hərbi xidmət keçməsi və s. nəzərə alsaq, aydın olur ki, bu cinayəti törədə biləcək şəxslər minimum 20 yaşdan sonra subyektə çevrilə bilərlər. Eyni zamanda işə başladıqdan dərhal sonra bu cinayətin subyektinə çevrilmirlər, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən staj və sınaq kimi müddətləri tamamlamalı olurlar [2].

Təbii ki, yeni işə qəbul olunmuş əməkdaşın korrupsiya cinayəti törətməsi istisna olunmasa da, təcrübədə çox rast gəlinmir. Korrupsiya cinayətlərinin subyektinin psixoloji portreti yaradılarkən diqqət çəkən bir neçə mühüm məqamı təhlil etməkdə fayda var. Cinayətkarın şəxsiyyətinin xarakteristikası zamanı biz bir neçə tipin olmasının şahidi oluruq. Təsadüfi tipdən başlayan ilk mərhələ özündə peşəkar tipdə olmaqla bir neçə forma və məzmunu əhatə edir [7].

Nəticə etibarilə təsadüfi tip əgər ilk dəfə cinayət törədən şəxsdirsə, situativ tip xarici mühitdə yaranmış qeyri-qənaətbəxş imkanlar hesabına cinayət törədən şəxsdir. Qəddar və xüsusilə qəddar tiplər isə daha əvvəl cinayətlər törədən, habelə törətdikləri cinayətlərə görə müxtəlif diskriminasiyalara məruz qalmalarına

və cəzalandırılmalarına baxmayaraq, yenidən cinayət törədənlərdir. Bir də bu mərhələnin ən statiki olan peşəkar tip var ki, bu tipdən olan şəxslər cinayət törətməyi artıq vərdiş halına çevirib və bu növ cinayətlər onların əsas gəlir mənbəyidir. Bu mərhələdə bir suala cavab tapmalıyıq: korrupsiya cinayətlərinin subyektləri əksərən bu cinayətlərin hansı tipinin əlamətlərini özündə ehtiva edirlər? Təbii ki, təsadüfi tipdən söhbət gedə bilməz ki, bu növ cinayətləri törədənlər adətən ehtiyatsızlıqdan baş vermiş cinayəti törədirlər. Qəddar və xüsusilə qəddar tipin əsas əlaməti odur ki, bu tipdən olan şəxslər cəzalandırılır və cinayət məsuliyyətinə cəlb olunurlar. Lakin qanunvericiliyin tələblərinə və bugünkü məhkəmələrin hüquqi mövqeyinə əsasən qeyd etməliyik ki, korrupsiya cinayəti törətmiş şəxslərə, bir qayda olaraq, ağır cəzalar verilir və eyni zamanda onların müəyyən fəaliyyətlə məşğul olmaq hüquqları məhdudlaşdırılır. Belə olduğu halda şəxsin korrupsiya cinayətinə görə cəzalandırıldıqdan sonra yenidən bu növdən olan cinayəti edə biləcəyi vəzifəyə təyin edilməsi real deyildir.

Burada mühüm faktorlara gəldikdə isə, ilk növbədə məhkəmələr tərəfindən, bir qayda olaraq, korrupsiya cinayəti törətmiş şəxslərə real cəzalar təyin edilir, habelə həmin şəxslərin müəyyən fəaliyyətlə məşğul olmaq və vəzifə tutmaq hüquqları məhdudlaşdırılır. Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 46-cı maddəsində müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cəza nəzərdə tutulub [1].

Həmin maddənin 1-ci bəndində qeyd olunur ki, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə dövlət orqanlarında, yerli özünüidarə orqanlarında konkret vəzifə tutmağın və ya konkret peşə və ya digər fəaliyyətlə məşğul olmağın qadağan edilməsindən ibarətdir. Həmin maddəyə əsasən bu növdən olan cəza əsas cəza kimi bir ildən beş illədək müddətə, əlavə cəza kimi isə bir ildən üç ilədək müddətə təyin edilir. Həmin maddənin 2-ci bəndində qeyd olunur ki, törədilmiş cinayətin xarakteri və ictimai təhlükəli olması ilə bərabər, təqsirkar şəxsin şəxsiyyətini nəzərə alaraq, məhkəmə Cinayət Məcəlləsinin Xüsusi hissəsinin müvafiq maddəsi ilə nəzərdə tutulmayan hallarda da müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəza növünü əlavə cəza kimi təyin edə bilər.

Yəni Məcəllənin mövqeyinə görə, bu növdən olan cinayətlərlə bərabər, şəxsin təqsir-liliyini nəzərə alaraq, onun kriminoloji şəxsiyyətinə münasibətdə də bu cəza növü təyin edilə bilir.

Belə olduqda isə bu növ cinayəti törədən şəxsin sonradan hər hansı vəzifə tutması istisna edilir, bir qayda olaraq, işəgötürən korrupsiya cinayətinin subyekti olmuş vəzifəli şəxsi gələcəkdə bu növdən olan cinayətlər törədə biləcəyi vəzifələrə təyin etmək arzusunda olmur.

Subyektin kriminoloji xüsusiyyətlərini qeyd edərkən əmin oluruq ki, bu cinayəti törətmiş şəxslər peşəkar tiplərdir. Peşəkar tipin fəaliyyəti isə özünü korrupsiya cinayəti üzrə ixtisaslaşmasını və əsas tələbatlarını ödəməyin yolunu məhz bu növdən olan cinayətləri törətməklə maddi və s. imtiyazlar əldə etməkdə görməsidir [5].

V.N.Burlakov və digər həmmüəlliflər “Kriminologiya” dərsliyində qeyd edirlər ki, şəxsiyyətin kriminoloji davranışının başqa təzahür tipləri: adi, təsadüfi, professional və s. tiplər mövcuddur [6]. Onlar cinayət törətmiş şəxsin davranışındakı müsbət və mənfi əlamətləri birlikdə təhlil edərək, yekun nəticəyə gəlirlər. Belə ki, professional tipdə, eynilə peşəkarda olduğu kimi, şəxsiyyət cinayətlə birbaşa əlaqədə olur və mənəvi, əxlaqi keyfiyyətlərini itirərək bir sıra cinayətlər törədir. Əsas xarakterik əlaməti isə odur ki, bu cinayətləri törətmək onların həyat tərzinə çevrilir, fəaliyyətlərinin bir hissəsini

təşkil edir. Məsələn, korrupsiya cinayəti törətmiş vəzifəli şəxs bu növdən olan cinayətləri ardıcıl və mütəmadi törətmək məqsədilə öz təsir imkanlarından istifadə edir. Növbəti zərərçəkmişlərə münasibətdə yeni yanaşma təyin edir və işini bu istiqamətdə qurur. Torpaq sahəsinin sənədləşdirilməsinə münasibətdə buna məsul olan şəxs başa düşür ki, qeyri-müəyyən sənədlərin tələb olunması, əlavə sənədlərin toplanması və vaxtın uzadılması zamanı gələcək qurban nə olursa-olsun qısa müddətdə nəticə əldə etmək istəyəcəkdir. Bu məqsədlə də işini neqativ yollarla da olsa həll etmək arzusunda olan vəzifəli şəxs müvafiq addımlar atır və nəticədə qarşısına qoyduğu məqsədə nail olur.

Təbii ki, bütün həyada olduğu kimi, fərdi cinayət törətməyə sövq edən müxtəlif amillərin cəmi nəticəsində o cinayətkar davranışa yol verir. Cinayətkarı cinayət törətməsinə sövq edən bütün amillərin cəmi motivasiya adlanır [8].

Motivasiya – fərdi kriminoloji davranışın sosial-psixoloji mexanizmidir. Yəni cinayətkarın cinayət törətməsi üçün onu bu cinayətə sövq edən amillərin cəmidir




Nəticə olaraq qeyd edək ki, korrupsiya cinayətinin subyektinin kriminoloji xüsusiyyətləri onu bu cinayəti törətməyə sövq edən hallar, əməli törətməyə yönəlmiş motivasiya və digər hərəkətlərin cəmi kimi mühüm əlamətləri özündə əks etdirir.

**İstifadə edilmiş mənbələr**:

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli “Azərbaycan Respublikası Cinayət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikasının Qanunu ilə təsdiq edilmişdir (30 may 2023-cü il_ tarixdə olan dəyişiklik ). – Bakı: Qanun, – 2023. – 496 s.

2. “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikasının Qanunu // 21 iyul 2000-ci il tarixdə 926-IQ nömrə ilə qəbul edilmişdir: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/4481

3. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 308-ci maddəsinin "Qeyd" hissəsində nəzərdə tutulmuş "vəzifəli şəxs" anlayışının şərh olunmasına dair Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun Qərarı // 19 iyul 2013-cü il tarixdə qəbul edilmişdir: [Elektron resurs]/URL: https://e-qanun.az/framework/26312

4. Əliyev, N. Mansurov, V. Kriminologiya fənni üzrə dərs vəsaiti (sxemlərdə). – Bakı: Ecoprint, – 2017. – 160 səh.

5. Səməndərov F.Y. Kriminologiya. Dərs vəsaiti. – Bakı, – 2012.

6. Криминология. Учебник // Под ред. В.Н.Бурлакова, Н.М.Кропачева. – СПБ: Санкт-Петербургский государственный университет, Питер, – 2002. – 432 с.

7. Криминология. Учебник для юридических вузов / Алексеев А.И., Аргунова Ю.Н., Ванюшкин С.В., Демидов Ю.Н., и др.; Под общ. ред.: Долгова А.И. - М.: Инфра-М-НОРМА, 1997. – 784 с.

8. Grishaev, R. A. (2019). ANALYSIS OF TYPICAL SUBJECTS ON CORRUPTION CASES. *Вестник науки*, *2*(7 (16)), 5-6.

9. Nur, J., Thalib, H., Rahman, S., & Nawi, S. The Nature of Sentencing Against Private Legal Subjects as Perpetrators in Corruption.

**Муслимов Бахруз Фиризман оглу**

## КРИМИНОЛОГИЧЕСКАЯ ХАРАКТЕРИСТИКА СУБЪЕКТОВ КОРРУПЦИОННЫХ ПРЕСТУПЛЕНИЙ

### РЕЗЮМЕ

Статья посвящена основному портрету субъекта коррупционных преступлений. Основной темой дискуссий относительно коррупционных преступлений является то, как субъект начинает совершать это преступление и совокупность факторов, побуждающих его к его совершению. Какие стадии проходит субъект для совершения коррупционного преступления, прежде чем преступник совершает сговор. Путем анализа личности и вида преступника выявляются важные характеристики субъекта коррупционного преступления.

**Muslumov Bahruz Firizman**

## CRIMINOLOGICAL CHARACTERISTICS OF SUBJECTS OF CORRUPTION CRIMES

### SUMMARY

The article is devoted to the main portrait of the subject of corruption crimes. The main topic of debate regarding corruption crimes is how the subject starts to commit this crime and the totality of factors that motivate him to commit it. What stages does the subject go through to commit the crime of corruption before the criminal commits the conspiracy. By analyzing the identity and type of the criminal, the important characteristics of the subject of the corruption crime are revealed.

**Redaksiyaya daxilolma tarixi: 12.01.2024**
**Təkrar işlənməyə göndərilmə tarixi: 13.01.2024**
**Çapa qəbul olunma tarixi: 15.01.2024**